*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 500-505*
https://doi.org/10.62837/2024.3.500

**İSGƏNDƏROVA SEVDA ƏSGƏR QIZI**
**ADMİU**
*Ünvan: Bakı şəhəri, Həsən bəy Zərdabi küç. 39 A*
*Email: sevdaisgenderova@gmail.com*

# SÜLEYMAN ƏLƏSGƏROVUN YARADICILIĞIDA FOLKLOR MUSIQISININ ROLU

Görkəmli bəstəkarımız, Xalq artisti, Dövlət mükafatı laureatı, ictimai xadim, professor Süleyman Ələsgərov Azərbaycan musiqi tarixində silinməz iz qoyub, musiqi sənətimizin inkişafı naminə yorulmadan çalışmışdır.

Xalq musiqisindən bəhrələnən bəstəkarın özünəməxsus musiqi dili, fərdi yaradıcılıq xüsusiyyətləri onun bütün əsərlərində diqqəti cəlb edir. Bəstəkar daima qədim və zəngin bir tarixə malik olan xalq musiqimizin ən gözəl ənənələrini öz yaradıcılığında əks etdirərək, xalq musiqi intonasiyalarından, ayrı-ayrı xalq musiqi nümunələrindən və onların zövq oxşayan ünsürlərindən peşəkarlıqla istifadə etmişdir ki, bu da bəstəkarın xalq musiqisinə vurğunluğunu bir daha təsdiq edir. Xalq musiqisi bəstəkarın yaradıcılığının və musiqi fəaliyyətinin əsas hissəsini təşkil edib, bütün əsərləri sırf milli xalq musiqisi dilindədir. Bəstəkar "Bayatı-Şiraz" simfonik muğamında rəng və təsniflərdən, "Aman ovçu", "Laçın" kimi xalq mahnılarını yaradıcılıqla tətbiq etmişdir.

Süleyman Ələsgərov xalq mahnılarının toplanaraq nota salınmasında digər bəstəkarlarımız kimi birbaşa iştirak etməsə də, xalq musiqisi onun yaradıcılığının əsas intonasiya mövzusunu təşkil etmişdir. O, bütün əsərlərində xalq mahnılarına, muğamlara, təsnif və rənglərə və aşıq musiqi intonasiyalarına üstünlük vermişdir. (1, səh. 13). Bəstəkarın yaradıcılığına qısa nəzər salaq:

1935-ci ildə Şuşa musiqi texnikumunun tar ixtisası sinifinə daxil olan Süleyman Ələsgərov tar alətinin sirlərini Qənbər Hüseynli və istedadlı müəllim Rəsul Əsədovdan öyrənir. Texnikumda təhsil aldığı illərdə orkestrə maraq göstərərək tələbələrdən ibarət xalq çalğı alətləri orkestrini təşkil edir. Tərkibi 50 nəfərdən ibarət olan orkestr qısa bir müddət ərzində geniş konsert proqramı hazırlayır. Xalq musiqisinə dərindən bələd olan və onu sevən bəstəkar xalq mahnıları, rəqsləri, muğam və təsnifləri, rəngləri orkestr üçün işləyərək repertuara daxil edir. Orkestr tədricən operalardan parçalar da səsləndirilməyə başlandı. (2, səh.6). Süleyman Ələsgərov "Koroğlu" operasından müxtəlif nömrələri orkestrə musiqi yaddaşına əsaslanaraq öyrətdi. Çünki, o dövrdə patriruraların və not yazılarının əldə olunması çox çətin idi. Tez bir zamanda orkestr Şuşa, Ağdam şəhərlərində, ətraf kəndlərində zəhmətkeşlərin qarşısında xalq musiqisi ilə yanaşı, operalardan müxtəlif nömrələri səsləndirərək dinləyicələrin rəğbətini qazandı. Dirijor kimi fəaliyyəti dövründə də Süleyman Ələsgərov daima folklor musiqisini yaşadaraq təbliğ və təmsil etməyə çalışmışdır. Süleyman Ələsgərov təkcə xalq və şifahi ənənəli musiqi nümunələri ilə

qane olmur, mürəkkəb əsərlərdən, operalardan parçaları da eşitmə yolu ilə orkestrin üzvlərinə öyrədərək böyük yaradıcılıq əzmi nümayiş etdirirdi.

1941-ci ildə Süleyman Ələsgərov Azərbaycan Teleradio Verilişləri Şirkətində əsası Üzeyir Hacıbəyli tərəfindən qoyulmuş xalq çalğı alətləri orkestrində II tar qrupunda işləməyə başlayır və iki il sonra bu orkestrdə dirijor köməkçisi kimi fəaliyyətini davam etdirir. O, Azərbaycan bəstəkarlarının əsərlərinə üstünlük versə də Qərb və Rus bəstəkarlarının müxtəlif janrlı əsərlərini də dirijorluq edirdi. 1944-cü ildən 1956-cı ilə kimi Süleyman Ələsgərov Azərbaycan Dövlət musiqili Komediya Teatrında baş dirijor, Kinomatoqrafiya Komitəsində kinoteatrlardakı orkestrlərin bədii rəhbəri, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının bədii rəhbəri işləyir. Süleyman Ələsgərov xalq çalğı alətləri orkestri üçün müxtəlif janrlı əsərlərin müəllifi olub, "Rəqs" mahnısı bu janr sahəsində ilk addımıdır. Bu əsərdə bəstəkar milli rəqs nümunələrindən yaradıcılıqla istifadə etmişdir. Böyük Vətən Müharibəsi illərində də bəstəkar öz fəaliyyətini davam etdirərək, "Cəngi", "Yallı", "Qaytağı" əsərlərində vətənin azadlığı uğrunda mübarizəni, əsgərlərimizin şücaətini və qəhrəmanlığı folklor musiqisinin dili ilə tərənnüm edir. (5, səh. 55).

Süleyman Ələsgərov bir çox xalq mahnılarını xalq çalğı alətləri orkestri və ansamblları üçün işləyərək bu kollektivlərin ifasında səsləndirir: "Anacan", "Gəl-gəl", "Ay bülbüllər", "Girdim yarın bağçasına", "Bazarda alma", "Getdi yar", "Şirvanın yolları", "Ay qız, qadan mən alım" və s. Bəstəkarın işlədiyi bu mahnılar hal-hazırda da bütün kollektivlər tərəfindən səsləndirilərək insanlaın qəlbini oxşayır. Süleyman Ələsgərovun qanun ilə xalq çalğı alətləri orkestri üçün işlədiyi "Şalaxo" xalq rəqsi və saz ilə orkestr üçün "Misri" aşıq havasına əsaslanan "Aşıqvari" müasir dövrümüzdə də bütün musiqi təhsili ocaqlarında tədris olunaraq, ifaçılıq sənətində böyük üstünlüklə istifadə olunur. Adından da göründüyü kimi bəstəkar öz əsərlərində aşıq musiqisi və milli rəqs nümunələrinə üstünlük verirdi.

Süleyman Ələsgərov xalq çalğı alətləri orkestri üçün 3 konsertin müəllifidir: 1 saylı konsert 1973, 2 saylı konsert 1983 və 3 saylı konsert 1994-cü ildə bəstələnmişdir. Bəstəkar bu konsertlərdə tarın xalq çalğı alətləri orkestri ilə səslənmə boyalarını genişləndirərək onların texniki imkanlarını göstərmişdir. Tar üçün konsertlərin musiqi dilində də bəstəkarımız folklor nümunələrinə geniş yer vermişdir. Görkəmli tarzən, professor Ramiz Quliyev Süleyman Ələsgərovun konsertlərinə yüksək qiymət verirdi: "Tarın ifadə vasitələrinə, texniki imkanlarına, tembr boyalarına tam yiyələnmiş bəstəkar saydığımız məziyyətlərdən məharətlə istifadə etmiş və xalq musiqisini yaşatmışdır." (3, səh.10).

Ramiz Quliyevə həsr olunan 2 saylı konsert müəllif tərəfindən simfonik orkestr üçün köçürülərək, nəinki respublikamızda, hətta Özbəkistan Dövlət Simfonik Orkestrinin repertuarında da mühüm yer tutur. Belə ki, 1993-cü ildə ilk dəfə Daşkəndin "Bahar" konsert salonunda keçirilən Azərbaycan simfonik musiqi gecəsində səsləndirilərək musiqi ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Orkestrin bədii rəhbəri, Özbəkistan respublikasının xalq artisti, professor Zahid Haqnəzərov konsertin orijinallığına yüksək qiymət vermişdir. 2 saylı konsert

Rusiyanın xalq artisti N.Nekrasovun rəhbərlik etdiyi Televiziya və Radionun Akademik rus xalq çalğı alətləri orkestri üçün də orkestrləşdirilmişdir. Ramiz Quliyev bu kollektivlə birgə Moskvada mərkəzi Radio studiyada əsəri lentə yazdırmış və lent yazısı Rusiya Teleradio Şirkətinin fonduna daxil olmuşdur. Süleyman Ələsgərov yaradıcılığının sonuna kimi xalq çalğı alətləri orkestri üçün orijinal əsərlər bəstələmişdir: "Sözsüz mahnılar", "Rəqs", "Cəngi", "Qaytağı", "Qarabağ təranələri", kamança və xalq çalğı alətləri orkestri üçün "Tarantella", "Skerso", tar ilə orkestr üçün "Daimi hərəkət", qanun ilə orkestr üçün "Poema", balaban və orkestr üçün "Xəyala dalarkən", saz ilə orkestr üçün "Aşıqsayağı" və sairə əsərləri milli musiqimizin inkişafında mühüm rol oynamışdır. "Aşıqsayağı"nın melodiyasında aşıq musiqisinə xas olan kvarta-kvinta, sekunda intervallarını aydın şəkildə eşidirik. Bəstəkar bütün janrlarda milli musiqi folklorunun nümunələrini yaradıcılıqla tərənnüm etmişdir. Onun tar ilə fortepiano üçün bəstələdiyi "Cəngi" pyesində də xalqımızın mübariz ruhu öz əksini tapır. Bu pyesdə "Cəngi" xalq rəqsinə xas olan intonasiyalar öz parlaq əskini tapmışdır. Süleyman Ələsgərovun tar üçün bəstələdiyi əsərlər alətin texniki imkanlarının, rəngarəng səslənmə palitrasının üzə çıxmasında mühüm rol oynayır və bəstəkar ən məşhur əsərlərini tar üçün bəstələmişdir. Bəstəkar "Daimi hərəkət" əsərində avropa musiqi alətlərinə məxsus olan texniki priyomlara əsaslanaraq tarın spesifik xüsusiyyətinə xas olan təbii keyfiyyətlərini və imkanlarını yeni formada nümayiş etdirir. Müəllif əsərdə muğamlar və aşıq musiqisinə xas olan elementlərdən bəhrələnərək pyesin ümumi məzmununu zənginləşdirmişdir.

Xalq musiqisinə xüsusi professionallıqla yanaşmasının nəticəsidir ki, o, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının xalq musiqi kafedrasının müdiri vəzifəsində uzun illər işləmişdir.

Bəstəkarın "Rəqs-tokkata"sı sırf avropa ənənələrinə istinadən sadə ikihissəli formada yazılaraq, "Alleqro-vivoçe" tempində, mürəkkəb 6/8 ölçüsündə, *si bemol minor* (b-moll) tonallığında başlayır. Bütün ifa müddətində tokkatoya xas olan ritmik fiqur əsərin ümumi nəbzi kimi toxunulmaz olaraq saxlanılaraq, milli folklor nümunələri ilə uzlaşdırılır. Bəstəkar ustalıqla "Alleqro vivoçe" tempində, Azərbaycan musiqisiniə xas olan mürəkkəb 6/8 ölçüsündə, "Bayatı-Şiraz" muğamının məğzinə istinadən melodiyanı rəngarəng səslənmələrlə, passajlarla variasiya xarakterində inkişafını verərək, faktiki olaraq alətin yuxarı və aşağı registrlərindən istifadə etmişdir. Əsərin məzmununda diqqəti cəlb edən xüsusiyyət onun ruh yüksəkliyi, işıqlı və emosionallığıdır. Bəstəkar kompozisiya daxilində təzadlı məzmunu nisbətən yığcam və dinamik inkişafla açmış olur. Birinci dövrənin musiqi cümləsi bəstəkarın yaradıcılığına xas olan bir səpkidə davam etdirilərək, müxtəlif kombinasiyalarla melodiya fiqurlarının dəyişməsi və başqa nəzərə çarpan məziyyətlər əsəri səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Süleyman Ələsgərovun tar ilə fortepiano üçün "Lirik rəqs"ində instrumental musiqiyə xas olan cəhətlər daha qabarıq şəkildə təzahür edir. "Şur" muğamının intonasiyaları tar ilə fortepianonun səslənməsində aydın şəkildə əks olunur. (5, səh. 58).

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 500-505*

Süleyman Ələsgərovun yaradıcılığında operetta janrı əsas yer tutub: "Məhəbbət gülü", "Ulduz", "Özümüz bilərik", "Olmadı elə oldu belə", "Milyonçunun dilənçi oğlu", "Hardasan ay subaylıq", "Sevindik qız axtarır", "Həmişəxanım", "Subaylardan görəsiz", "Gurultulu məhəbbət" və sairə operettaları bu gün də öz aktuallığını qoruyub saxlamışdır. Onun "Bahadır və Sona", "Solğun çiçəklər" operaları, "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, 200-ə qədər mahnı və romansları Azərbaycan musiqisinə zəngin bir töhfədir. Onun mövzu rəngarəngliyi və obrazların zənginliyi ilə diqqəti cəlb edən əsərlərində doğma vətənə məhəbbət, xalqın əzəmətli quruculuq işlərinə görə iftixar hissi, insan əməyinin sevinci təcəssüm olunmuşdur. Əlbəttə ki, bu xüsusiyyətlərin açılmasında yenə də milli musiqi folkloru kömək olmuşdur.

Bəstəkarın "Vətənimdir" qəzəl-romansı dahi Azərbaycan şairi Məhəmməd Füzulinin vəfatının 400 illiyi münasibətilə yazılmışdır. "Alleqro con moto" tempində, 6\8 ölçüsündə, "Şüştər" məqamının intonasiyaları əsasında bəstələnən romansın giriş hissəsi orkestrin ifasında şərh olunur.

Süleyman Ələsgərovun tələbələri-professor Səadət Abdullayeva, professor Vaqif Əbdülqasımov, professor Oqtay Quliyev, professor Ramiz Mirişli, professor Şəfiqə Eyvazova ifaçılıq sənətində və musiqişünaslığımızda mühüm addımlar ataraq, onların yaradıcılığı milli musiqi mədəniyyətimizdə önəmli rol oynamışdır.

Süleyman Ələsgərov dahi Üzeyir Hacıbəylinin ənənələrinin davamçısı kimi Azərbaycanın bütün bölgələrindən istedadlı uşaqları musiqi təhsilinə cəlb edərək, onların gələcəkdə doğma vətənimizə böyük töhfələr bəxş edən musiqiçi kimi yetişməsində böyük rol oynamışdır.

Beləliklə, Süleyman Ələsgərov müxtəlif janrlı əsərlərində milli folklor nümunələrindən yaradıcılıqla bəhrələnərək, onları klassik musiqi ilə uzlaşdırmışdır. Bəstəkarın musiqisi yüksək professionallığı, kamil forması, gözəl melodiyası, rəngarəng ritm çalarları ilə fərqlənərək, bu musiqi irsi həmişə yaşayacaqdır. Qeyd etməliyik ki, bu il Süleyman Ələsgərovun anadan olmasının 100 illiyidir. Bu səbəbdən də musiqi təhsilimdə mühüm rol oynayan müəllimim və mənə hər zaman mənəvi dəstək olan bu şəxsiyyətin yaradıcılığını araşdırmağı və onun folklor nümunələri ilə zəngin olan musiqi irsini üzə çıxarmağı qarşıma məqsəd qoymuşam.

## Xülasə

Təqdim olunan məqalə görkəmli bəstəkar, Xalq artisti, professor, ictimai xadim Süleyman Ələsgərovun yaradıcılığına və onun yaradıcılığında milli musiqi folklorunun roluna həsr olunmuşdur. Bəstəkar daima qədim və zəngin bir tarixə malik olan xalq musiqimizin ən gözəl ənənələrini öz yaradıcılığında əks etdirərək, xalq musiqi intonasiyalarından, ayrı-ayrı xalq musiqi nümunələrindən və onların zövq oxşayan ünsürlərindən peşəkarlıqla istifadə etmişdir ki, bu da bəstəkarın xalq musiqisinə vurğunluğunu bir daha təsdiq edir. Onun mövzu rəngarəngliyi və obrazların zənginliyi ilə diqqəti cəlb edən əsərlərində doğma vətənə məhəbbət, xalqın əzəmətli quruculuq işlərinə görə iftixar hissi, insan əməyinin sevinci təcəssüm olunmuşdur. Süleyman Ələsgərovun tələbələri-professor Səadət Abdullayeva,

professor Vaqif Əbdülqasımov, professor Oqtay Quliyev, professor Ramiz Mirişli, professor Şəfiqə Eyvazova ifaçılıq sənətində və musiqişünaslığımızda mühüm addımlar ataraq, onların yaradıcılığı milli musiqi mədəniyyətimizdə önəmli rol oynamışdır.

**AÇAR SÖZLƏR:** Süleyman Ələsgərov, folklor musiqisi, bəstəkar, mahnı, romans, dirijor, xalq çalğı alətləri orkestri.

**SEVDA ISKANDEROVA**

**THE ROLE OF FOLK MUSIC IN THE WORK OF SULEYMAN ALASGAROV**

**SUMMARY**

The presented article is dedicated to the work of prominent composer, People's Artist, professor, public figure Suleyman Alasgarov and the role of national music folklore in his work. Reflecting the best traditions of folk music, which has always had an ancient and rich history, the composer professionally used the intonations of folk music, individual samples of folk music and their pleasing elements, which once again confirms the composer's passion for folk music. His works, which attract attention with the variety of themes and richness of images, embody the love for the homeland, the people's pride in the great creative work, the joy of human labor. Suleyman Alasgarov's students - Professor Saadat Abdullayeva, Professor Vagif Abdulgasimov, Professor Ogtay Guliyev, Professor Ramiz Mirishli, Professor Shafiqa Eyvazova - took important steps in the performing arts and musicology, and their work played an important role in our national music culture.

**KEYWORDS:** Suleyman Alasgarov, folk music, composer, song, romance, conductor, orchestra of folk instruments.

**СЕВДА ИСКАНДЕРОВА**

**РОЛЬ НАРОДНОЙ МУЗЫКИ В ТВОРЧЕСТВЕ СУЛЕЙМАНА АЛЕСКЕРОВА**

**РЕЗЮМЕ**

Представленная статья посвящена творчеству выдающегося композитора, народного артиста, профессора, общественного деятеля Сулеймана Алескерова и роли национального музыкального фольклора в его творчестве. Отражая лучшие традиции народной музыки, которая всегда имела древнюю и богатую историю, композитор профессионально использовал интонации народной музыки, отдельные образцы народной музыки и их приятные элементы, что еще раз подтверждает страсть композитора к народной музыке. Его произведения, привлекающие внимание разнообразием тем и богатством образов, воплощают любовь к Родине, гордость народа за великое творчество, радость человеческого труда. Ученики Сулеймана Алескерова-профессор Саадат Абдуллаева, профессор Вагиф Абдулгасимов, профессор Огтай Гулиев, профессор Рамиз Миришли, профессор Шафика Эйвазова-сделали важные

шаги в области исполнительского искусства и музыковедения, и их творчество сыграло важную роль в нашей национальной музыкальной культуре.
**КЛЮЧЕВЫЕ СЛОВА:** Сулейман Алескеров, народная музыка, композитор, песня, романтика, дирижер, оркестр народных инструментов.

**İstifadə olunan ədəbiyyat**

1. Qasımova S., Bağırov N. Azərbaycan sovet musiqi ədəbiyyatı. Bakı, İşıq nəşriyyatı, 1984.
2. Babayev E. Süleyman Ələsgərov. Bakı, 1992, s.26.
3. Xəlilov V. Bəstəkar Süleyman Ələsgərov. Bakı, İşıq, s.23.
4. “Bəstəkarlarımız haqqında söz” toplusu. Bakı, Şur, 1995, s.34.
5. Rzayeva G. Dirijorluğun nəzəri əsasları. Dərs vəsaiti. Bakı, Ecoprint, 2017, 95 səh.

**Rəyçi: professor Nadir Məmmədli**